Ən çox oxunan qəzet

№ 91 (4786), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

22 may (çərşənbə axşamı)

www.sherg.az

## Tağıdan 4 gündür xəbər yoxdur

Azərbaycanlı tələbə Tiflisdə yoxa çıxıb



**Gürcüstanda təhsil alan azərbaycanlı tələbə, 1998-ci il təvəllüdlü İsgəndərov Tağı 4 gündür ki, yoxa çıxıb.**

Bu barədə "Qafqazinfo"ya onun yaxınları məlumat verib. T. İsgəndərov Tiflisdə universitetlərin birinin II kurs tələbəsidir.

(Səh.8)

## Bakıda universitet tələbəsi özünü asdı

Tələbənin intiharı psixoloji gərginliyi ilə əlaqələndirilir



**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan 1996-cı il təvəllüdlü Ramiz Şahmalıyev özünü asıb.**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) ictimaiyyətlə əlaqələr və marketinq departamentinin rəhbəri Bəhruz Nəzərov Modern.az saytına açıqlamasında Ramiz Şahmalıyevin universitetin tələbəsi olduğunu təsdiqləyib.

(Səh.9)



## Prezidentlər yeni əlaqələrə önəm verirlər

Azərbaycanla Serbiya arasında görüləcək çox işlər var

**Dünən Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycanda səfərdə olub. Serbiya rəhbərini Prezident İlham Əliyev qarşılayıb.**

Qarşılama mərasimindən sonra prezidentlərin geniş tərkibli görüşü olub və tərəflər arasında bir sıra sənədlər imzalanıb. Daha sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

(Səh.2)

## "İstiqlal düşüncələri: Cümhuriyyətə aparan yollar"

Yeni çapdan çıxan kitabın təqdimat mərasimi olacaq




Tanınmış telejurnalist, şair-publisist Bəxtiyar Qaraca və tarix elmi üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlının müəllifliyi, filologiya üzrə fəlsəfə doktoru, "Kaspi" qəzeti və "Kaspi Təhsil Mərkəzi"nin təsisçisi Sona Vəliyeva və Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşovun ön sözü ilə "İstiqlal düşüncələri.

(Səh.7)

# Bakıda çayxanada güclü partlayış...



## Ölənlərin şəxsiyyəti müəyyənləşdi, yaralıların durumu ağırdır

**Dünən Bakı şəhərinin Binəqədi rayonunda partlayış hadisəsi baş verib. Baş vermiş partlayışda ölənlərin sayı dəqiqləşib.** "Elite" ticarət mərkəzi ilə üzbəüz ərazidə yerləşən kiçik obyektdə qaz sızmasından baş verən partlayış səbəbindən 2 nəfər hadisə yerində ölüb. Hər iki şəxs yanaraq ölüb. İlk əvvəl vizual olaraq onların kimliyini müəyyənləşdirmək mümkün olmayıb. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları, xilasedicilər və təcili tibbi yardım briqadaları gəlib.

(Səh.9)

Günün içindən | Günün içindən | Günün içindən | Günün içindən



## "Yazdıqlarını həyatı ilə təsdiqləməyən heç bir şairə, yazıçıya inanmıram"

Aqşin Yenisey: "Mütaliədən gələn müəllif ancaq naşı oxucu üçün orijinal ola bilər, əsl orijinallıq kitabdan kitaba deyil, həyatdan kitaba gəlməkdir"

**Atalar yaxşı deyib: "Söz vaxtına çəkər".** İki il bundan əvvəl yaz aylarında şair Aqşin Yeniseyin Türkiyəyə köçməsi barədə söz-söhbət yayılmışdı. Kimisi onun müvəqqəti getdiyini, kimisi də birdəfəlik ölkəni tərk etdiyini deyirdi.

(Səh.6)



## Ana 5 yaşlı övladına işgəncələr verir

# Əl-ayağı bağlı uşaq...

(Səh.9)